# İslamda mənəvi dəyərlər

Savalan FƏRƏCOV

## İslam dinində qadın amili

Tarixin müxtəlif dövr və quruluşlarında qadınlara münasibət-yanaşma fərqli olmuşdur. İslamaqədərki sivilizasiyalarda qadınlara münasibət heç də yaxşı olmamışdır. Xüsusilə, indiki Avropa ölkələrində qadına əyləncə vasitəsi kimi baxılıb. Söz yox ki, hər bir xalqın öz mədəniyyət meyarı-ölçüsü var. Avropa ölkələrində də qadına bu cür yanaşma mədəniyyət hesab edilmişdir...

Lakin islam dini zamanı qabaqlayaraq mütərəqqi ehkamları-cəhətləri ilə bütün dinlərin fövqündə durur. Yer üzünün əşrəfi sayılan insanlara qarşı aparılan zorakılığı pisləyir. Allah qarşısında hamı bərabərdir. İslamı qəbul edən hər kəs qardaşımızdır deyib. Dövrün bir qul kimi əzilib-satılan zərif məxluqunun mənəvi və fiziki cəhətdən məhv edilməsinin qarşısını alır. Onlara yüksək dəyər verir. Ancaq müsəlman qadının bu mərtəbəyə qalxması bəzi xalqları və siyasətbazları daima narahat etmiş və bu gün də etməkdədir. Onlar müxtəlif səviyyəli konfranslarda, toplantılarda haqsız olaraq islam dininin qadın hüquq və azadlığını məhdudlaşdıran bir din olması imicini yaradırlar. Söz yox ki, bütün bunlar onların islamın uğurlarına dözümsüzlük nümayiş etdirməsidir.

Haşiyə: 1405-ci il tarixdə Əmir Teymur ölür. Siyasi təzyiqlər nəticəsində çox keçmir nəvələri Hindistana mühacirət edirlər. XVI əsrin 25-30 -cu illərində Əmir Teymurun böyük nəvəsi Zahirəddin Bədr orada-Hindistanda "Böyük Moğollar" imperiyasının əsasını qoyur.

Moğollar dövründə ölkənin siyasi və iqtisadi vəziyyəti möhkəmlənir, incəsənət inkişaf edir. Eyni zamanda islam dini geniş yayılır. Bununla əlaqədar ölkədə yeni memarlıq abidələri: məscidlər, mədrəsələr və türbə- məqbərələr meydana gəlir. Bu dövrdə Hindistanda onlarca, yüzlərcə memarlıq abidələri tikilir. Həmin memarlıq abidələrindən biri Aqra şəhərində tikilmiş "Tac-Mahal" ( 1632-1650 ) məqbərəsidir. Tarixdə Cahan şah kimi tanınan Zahirəddin Bədr " Böyük Moğollar" dövlətini qurur. Lakin çox keçmir ömür-gün yoldaşı Mümtaz vəfat edir. Onu Aqra şəhərində dəfn edirlər. Məzarının üstündə 75 metr hündürlüyündə bir türbə-məqbərə tikdirir. ( Ağ və çəhrayı mərmərdən tikilmiş bu memarlıq abidəsi ideal simmetryası və hədsiz gözəlliyi ilə insanları valeh etmişdir ). Təkrarsız bu memarlıq abidəsinə-məqbərəyə ad qoymaq qərarına gəlirlər. İlk öncə məqbərəyə " Mümtaz-Mahal" adı qoyulur. Sonra bu fikirdən daşınırlar. Belə fikirləşirlər ki, islam dininin ülvi adət-ənənələrinə görə qadının adı yad-özgə dillərdə dolaşmamalıdır. Məhz bu səbəbdən də məqbərənin adı dəyişdirilmiş, " Tac-Mahal " qoyulmuşdur.

Bu tarixi hadisəni qeyd etməklə bildirmək istədim ki, heç bir din, heç bir xalq islam dini qədər və türk xalqı səviyyəsində qadına dəyər verməmişdir... Eyni zamanda islam dini qadına çox səlahiyyət də vermişdir. Allah və onun rəsulu kişilərə qadınların haqlarını tapdalamamağı əmr etmişdir. Bildirmişdir ki, hər bir kişi övrətinin onun üzərində olan haqlarını qorumalıdır. İslam həm də qadına mülkiyyətçi olmaq hüququ da vermişdir. Lakin çox böyük təəssüf hissi ilə qeyd edim ki, bütün bunlara baxmayaraq, bir çox cavanlar dinimizin və dövlətimizin mövcud qanunlarına məhəl qoymurlar. Onlar öz nəfslərinin tələblərinə uyur, bir çox ağıllı və namuslu qızların qürurları ilə oynayırlar...

Dünyəvi məsələlərdə məcburiyyət formasına gəlincə bir çox mətləblərə də toxunmaq olar. İlk öncə unudulmamalıdır ki, qadınlar təbiət etibarilə mürəkkəb yaradılmışdır. Onlara münasibətdə həddindən artıq diqqətli olunmalıdır. Bu barədə peyğəmbərlərimizin tövsiyəsi əvəzsizdir: " Qadınla diqqətli olun. Onlar qabırğadan yaradılıb. Qabırğanın əyri tərəfi yuxarı hissəsidir. Düzəltmək istəsəniz sındırarsınız. Düzəltməsəniz əyilməkdə davam edəcəkdir. Onlara qarşı diqqətli olun..."

## İslamda hicab

Hicab islamaqədərki dinlərdə və sivilizasiyalarda da mövcud olmuşdur. Tarixi mənbələrdə var ki, islamdan öncə indiki Avropa ölkələrinin çoxunda qadınlar hicab geymişdir. Qeyd edim ki, həmin dövrdə hicab qadının yüksək zümrəyə, zadəgan nəslinə mənsub olmasını göstərmişdir.

Lakin zaman keçdikcə tarixi- siyasi hadisələrin təsiri ilə hicab insanların həyat tərzindən çıxmışdır. Ancaq islam dini öz gəlişi ilə Şərqdə hicaba bir daha yeni həyat vermişdir. Bu həyat Avropa ölkələrindəkindən çox fərqli olmuşdur. Belə ki, Avropa ölkələrində hicab ancaq yüksək zümrəyə aid qadınlar üçün nəzərdə tutulurdusa, islamda Allah qaşısında hamı bərabərdir-deyə bütün qadınlar üçün hicab vacib bilinmişdir.

İslam din xadimi - alimi ibn Teymiyyə deyir:- " Həsədsiz insan yoxdur.Lakin alicənab və əxlaqi olan onu gizlədir, əxlaqsız isə onu büruzə verir".

İslami dəyərlərdə tövsiyə olunur ki, hər bir qadın anlamalıdır ki, onun malik olduğu keyfiyyətlər yalnız onun əri üçündür. Onlar başqalarına nümayiş etdirilməməlidir. Eyni zamanda o da bildirilir ki, qadın o vaxt hicabsız xalq arasına çıxa bilər ki, ona deməsinlər ki, kimin övrətidir. Desinlər ki, bu kimin anasıdır.

**Əlbəttə, islamiyyətdə qadına verilən dəyər əlçatmazdır. İslam qadın hüquqlarının yeganə qoruyucusudur. Məhz buna görə də islamiyyətdə " feminizm" yoxdur. Feminizm fransız sözüdür. Avropada qadın hüququnu qoruyan cərəyanın adıdır. İslamiyyətdə qadın hüquqları daim qorunduğu üçün belə bir cərəyana ehtiyac olmamışdır...**

# Həzrəti Məhəmmədin kəlamları

**Ömrünün uzanmasını və ruzisinin artmasını istəyən kəs valideynlərinə ehtiram etsin, qohumlarını yoluxsun...**

***

**Üç duanın qəbul olunacağına şübhə yoxdur: məzlumun duası, qonağın duası və ata- ananın övladına etdiyi dua...**

***

**Bir kimsə bir mömini sevindirərsə, sanki məni sevindirər. Məni sevindirən kimsə Allahdan vəd alar. Allahdan vəd alana cəhənnəm odu dəyməz...**

***

**Allah-təala o Adamı himayəsinə alıb cənnətə daxil edir ki, onda bu üç keyfiyyət olsun: zəif adamla mehribançılıq, valideynlərə qarşı şəfqət göstərmək, tabeliyində olanlarla yaxşı davranmaq...**

***

**Allah-təala üç adama lənət edər: ata-anasından üz çevirənə, ərlə-arvadın arasını vurub sonra arvada sahib çıxana, bir-birinə qəzəblənsinlər və paxıllıq etsinlər deyə möminlərin arasında dedi-qodu yaradana...**

***

**Ata-ananıza ehtiram edin ki, övladlarınız da sizə hörmət qoysunlar. Həyalı və namuslu olun ki, qadınlarınız da həyalı və namuslu olsunlar...**

***

**Övladlar arasında oğlanla qıza fərq qoymayın; fərq qoymaq lazım gəlsəydi, mən qızları daha üstün tutardım...**